# Milli-mənəvi dəyərlərə, tarixə həssas münasibət

## Millət vəkilləri hesab edir ki, Prezident İlham Əliyevin Tovuz Tarix-Diyarşünaslıq Muzeyinin açılışı zamanı səsləndirdiyi iradlar əsaslıdır



**Prezident İlham Əliyev Azərbaycan xalqına, dövlətinə, tarixinə, milli-mənəvi dəyərlərimizə son dərəcə bağlı olan liderdir. O, dövlət başçısı kimi keçirdiyi görüşlərlə, imzaladığı fərman və sərəncamlarla, atdığı hər bir addımla daim humanistliyini, qayğıkeşliyini nümayiş etdirib, hər kəs üçün əsl nümunəyə çevrilib.**

Böyüklərə, şəhid valideynlərinə hörmət və ehtiramını hər zaman əməlləri ilə ifadə edən Prezident İlham Əliyev dövlətçilik qarşısında xidmətləri olan yaşlı nəslin nümayəndələrinə də daim xoş münasibət göstərib, onların əməyini lazımınca dəyərləndirib. Bütün bunlar keçmişimizə, tariximizə, böyüklərimizə olan hörmətin nümayişidir.

Martın 4-də Tovuza səfəri çərçivəsində Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak edən Prezident İlham Əliyevin muzeydə nümayiş olunan xəritəyə elmi-tarixi baxımdan ciddi və haqlı irad bildirməsi də onun tariximizə, keçmişimizə bağlılığından, milli-mənəvi dəyərlərimizə həssas yanaşmasından qaynaqlanır. Belə ki, muzeyin eksponatları ilə tanış olan Prezident İlham Əliyev burada nümayiş etdirilən tarixi xəritələrlə bağlı iradlarını çatdırıb. Xəritənin neçənci əsrə aid olduğunu, haradan alındığını sual edən ölkə rəhbəri tapşırıb ki, muzeydə sərgilənən hər bir xəritədə dəqiq tarix, mənbə, qədim yer adları yazılmalı, tarixi Azərbaycan əraziləri öz qədim adları ilə, olduğu kimi gənc nəsillərə çatdırılmalıdır: "Qədim adlar, məsələn, Sisian yazılıbdır. O vaxt Sisian adı yox idi, sonra kimsə bunu uydurub. Xəritədə indiki Azərbaycan ərazisində Mingəçevirdən başqa heç bir tarixi ad yazılmayıb. Halbuki, Bərdə, Qəbələ, Naxçıvan - bütün bunlar qədim şəhərlərimiz olub. Ona görə soruşuram, bu, hansı əsrə aiddir? Çünki bu xəritədən heç nə başa düşmək mümkün deyil. Qafqaz Albaniyası dövləti də burada göstərilmir. Mədəniyyət Nazirliyi ilə əlaqə saxlayın, xəritələr həm dəqiq olmalıdır, həm də bunun tarixi göstərilməlidir. Bu xəritə də bilinmir hansı tarixə aiddir. İndiki Azərbaycan ərazisində heç bir şəhərin adı yoxdur. Var buna cavab? Xəritə asıbsınız, hesab edirsiniz ki, bununla iş düzəlir? Bu xəritə bizim tariximizdir. Uşaqlar gəlib bu xəritədən bu tarix haqqında nə başa düşəcəklər? Buna belə yanaşmaq olmaz".

Prezident İlham Əliyevin Tovuzda Tarix-Diyarşünaslıq Muzeyinin açılışı zamanı səsləndirdiyi iradlarla bağlı fikrini "Kaspi" qəzetinə bölüşən **AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, millət vəkili Musa Qasımlı** deyib ki, ölkə başçısının xəritə ilə bağlı iradları düzgündür. Onun sözlərinə görə, bundan ciddi nəticə çıxarılmalıdır: "Cənab Prezidentimiz İlham Əliyevin Tovuz Tarix-Diyarşünaslıq Muzeyinin açılışındakı iradları tamamilə düzgündür. Müvafiq qurumlarımız muzeylərin təşkili məsələsində diqqətli olmalıdır. Heç kəsə sirr deyil ki, xəritələr ayrı-ayrı elmi idarələr və şəxslər tərəfindən hazırlanır. Bu gün də Azərbaycana qarşı dünyanın müxtəlif ölkələrində saxta xəritələr nəşr edilir və yayılır. Deməli, bizim müvafiq qurumlarımız muzeylərin təşkili məsələsində xeyli dərəcədə diqqətli olmalıdır. Hansı ölkədə hər hansı bir xəritə nəşr olunubsa, onu muzeylərdən asmaq, dərsliklərə salmaq olmaz. Bu, ziyanlıdır. Hesab edirəm ki, cənab Prezidentimizin bildirdiyi iradlardan Mədəniyyət Nazirliyi və yerlərdəki idarələri ciddi nəticə çıxarmalıdır".

**Tarixçi-alim, millət vəkili Fəzail İbrahimli** də qəzetimizə açıqlamasında deyib ki, Prezidentin Qərb regionuna səfərini diqqətlə izləyib və Tovuzdakı muzeyin açılışı zamanı yaşanan məqam xüsusilə diqqətini çəkib: "Çox böyük vətənpərvər olmaq, milli hislərlə yaşamaq mümkündür. Bu, hər bir vətəndaş üçün arzulanan haldır. Xüsusən də dövlət başçısının qarşısında duran vəzifə, ən böyük amal o olmalıdır ki, milli ruh, milli hiss yüksək olsun. Lakin bunları reallaşdırmaq üçün yalnız milli hiss, milli ruh yetərli deyil. Bunların reallaşmasına rəvac verən amil yüksək təhsilə, intellektual potensiala, səviyyəyə də sahib olmaq bacarığıdır. Hər kəsə məlumdur ki, Prezident İlham Əliyev dünyanın ən böyük ali məktəblərindən biri sayılan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil alıb. Ardınca həmin institutun aspiranturasına daxil olub, dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsini alıb və orada müəllim işləyib. Yəni bu, ölkə başçısının tarixlə bağlı zəngin fikirləri, düşüncələri, hər şeyə həddindən artıq tarixi nöqteyi-nəzərdən yanaşmasıdır".

Millət vəkili vurğulayıb ki, Tovuzdakı muzeydə yaşanan hadisədən öncə də Prezident İlham Əliyev dəfələrlə tarixi məqamlara, faktlara həssaslıq nümayiş etdirib, tarixi reallığı ən yüksək tribunadan dünya ictimaiyyətinin diqqətinə çatdırıb: "Ötən il oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirilmişdi. Həmin iclasda çıxış edən Prezident İlham Əliyev tarixə ekskurs edərək, Azərbaycanın Böyük Vətən Müharibəsindəki xidmətlərindən, işğalçı Ermənistanın faşizm ideologiyasına söykənən siyasətindən söhbət açdı. Tarixi faktlara istinad edən dövlət başçısı, Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyulduğunu, bununla da Ermənistan rəhbərliyinin MDB məkanında faşizmi qəhrəmanlıq kimi qələmə verdiyini vurğulayıb, işğalçı ölkənin baş naziri Nikol Paşinyanı fakt qarşısında qoyub, çıxılmaz vəziyyətə saldı. Yaxud, 2019-cu il oktyabrın 4-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında, bu ilin fevral ayında Münxen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevin çıxışlarını, Dağlıq Qarabağ məsələsini müzakirə edən zaman tarixi gerçəklikləri dilə gətirərək Ermənistanın baş naziri Paşinyanı ictimaiyyətin gözü qarşısında ifşa etməsini xatırlayın. Bütün bunlar onun tarixlə bağlı zəngin düşüncələrə, fikirlərə sahib olduğunu göstərir. Bu fikirləri o, beynəlxalq səviyyədə reallaşdıra bilib. Bununla da milli-dövlətçilik maraqlarına, xalqına bağlılığını nümayiş etdirib. Bir qədər əvvəl qeyd etdiyim kimi, bu, dərin fundamental təhsil səviyyəsindən qaynaqlanan məsələdir. Prezident İlham Əliyev tariximizi gözəl bilir. Ona görə də, sadəcə kimsə görsün, bilsin deyə deyil, ümumiyyətlə, tariximizlə bağlı məqamlarda son dərəcə diqqətli olmalıyıq. Tarixi adlara və faktlara dair məsələlərə həssas yanaşmalıyıq".

**Rufik İSMAYILOV**

Kaspi 2020.- 7-10 mart.- S.4.